# LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

**EU4Business-Aİ-nin Yerli Valyuta Tərəfdaşlıq Təşəbbüsü: the European Fund for Southeast Europe (EFSE)**



**İcra müddəti:** 20.12.2018 - 20.06.2039

**ŞT ölkələri:**

Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

**Aİ-nin maliyyə yardımı:** € 50 320 000

**Ümumi büdcə:** € 50 320 000

**İcraçı təşkilat(lar):**

KfW

**Sosial media hesablarına keçidlər:**

facebook.com/EFSEfund/, https://twitter.com/efsefund, youtube.com/channel/UC-RwaJDIqK544bA90wmtpHg,

**Internet səhifəsi:** efse.lu

**Layihənin təsviri:**

Fondun məqsədi əsasən mikro və kiçik müəssisələrin (MKM-lər) və fərdi ev təsərrüfatlarının ixtisaslı yerli maliyyə qurumları vasitəsilə davamlı əlavə inkişaf maliyyələşdirməsinin təmin edilməsi yolu ilə iqtisadi inkişaf və rifaha şərait yaratmaqdır.
CŞAF-ın məqsədi dayanıqlı və bazara əsaslanan prinsiplərə uyğun olaraq yerli maliyyə bazarlarını inkişaf etdirmək, kredit standartları müəyyən etmək, orta və uzunmüddətli maliyyələşmə qıtlığını azaltmaq və məsuliyyətli maliyyələşdirmə qaydalarını tətbiq etməkdir. Fond Şərq Tərəfdaşlığı ölkələrində son borcalanlara orta kredit məbləği təqribən 10000 avro olan subkreditlərin verilməsini maliyyələşdirmişdir və bunu davam etdirməyi planlaşdırır. Bu fond Şərq Tərəfdaşlığı ölkələrində fəaliyyətə başladığı gündən 2037-ci ilə qədər benefisiarların ümumi sayını təqribən 250 000-ə çatdırana qədər həmin ölkələrdə daha 74000 MKOM və ya fərdi ev təsərrüfatına maliyyə dəstəyi göstərməyi nəzərdə tutur. Fondun Şərq Tərəfdaşlığı ölkələrində fəaliyyət göstərən MKOM və fərdi ev təsərrüfatlarına əlavə olaraq ümumilikdə 1 milyard avro məbləğində subkreditlər verməsi gözlənilir. Aydındır ki, say baxımından mikrokreditlərin sayı çoxluq təşkil edəcək.

**Gözlənilən nəticələr:**

Adı çəkilən fəaliyyət, Şərq Tərəfdaşlığı ölkələrindəki müəssisələr üçün aşağıdakı əsas həssas sahələri əhatə edəcək:
-Qeyri-kafi xidmət göstərilən MKOM-ları və az gəlirli fərdi ev təsərrüfatlarını xarici valyuta ilə əlaqədar risklərə məruz qoymadan onlara yerli valyuta ilə orta müddətli kreditlərə çıxışın təmin edilməsi.
-Maliyyəyə çıxışın və stabil iş şəraitinin/yeni iş yerlərinin yaradılmasının yaxşılaşdırılması.
-MKOM-lara və az gəlirli fərdi ev təsərrüfatlarına yerli banklar tərəfindən verilən kreditlərin artırılması və bununla da onların maliyyəyə çıxışının davamlı olaraq yaxşılaşdırılması.
-Dövlət və özəl kapitaldan yararlanmaq (katalizator effekti).
-Yerli maliyyə bazarının iştirakının artırılması.